


Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 181 (3796) CÜMƏ, 6 AVQUST 2004-cü il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | İNDEKS AZ 1073 | www.azerbaijan.news.az | Qiyməti 1000 manat


## *Küveytin vəqflər və islam işləri nazirinin Azərbaycana səfəri*

## Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət



Ölkəmizdə səfərdə olan Küveyt Dövlətinin vəqflər və islam işləri naziri doktor Abdullah Məətuq əl-Məətuq avqustun 5-də Fəxri xiyabana gəlmişdir.

Burada qonağı Qafqaz Müsəlmanları İdarəsinin məsul işçiləri qarşılamışlar.

Küveyt naziri xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin məzarını ziyarət edərək əklil qoymuş, onun ruhuna dua oxumuşdur. Qonaq akademik Zərifə xanım Əliyevanın da məzarını ziyarət edərək gül qoymuş, mərhumun ruhuna dua oxumuşdur.

## Şəhidlərin xatirəsinə ehtiram



Doktor Abdullah Məətuq əl-Məətuq sonra Şəhidlər xiyabanında olmuşdur.

Hörmətli qonaq Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın məzarları üzərinə gül düzmüş, onların ruhuna dua oxumuşdur. Nazir şəhidlərin xatirəsinə ucaldılmış "Əbədi məşəl" abidəsinin önünə əklil qoymuşdur.

Sonra qonaq Bakının mənzərəsini seyr etmişdir.

*AzərTAc*
*Foto N.Məmmədovundur*

## Küveyt dövləti Azərbaycana hər cür kömək göstərməyə hazırdır

Ölkəmizdə səfərdə olan Küveytin vəqflər və islam işləri naziri doktor Abdullah Məətuq əl-Məətuq səfərin məqsədilə bağlı AzərTAc-ın müxbirinə müsahibə vermişdir. O demişdir:

- Mən Bakıya Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam hacı Allahşükür Paşazadənin dəvəti ilə gəlmişəm. Səfərimin əsas məqsədi dost, qardaş ölkələr olan Azərbaycanla Küveyt arasında əlaqələri daha da inkişaf etdirmək, möhkəmləndirmək, ruhani idarələrinin əməkdaşlığını genişləndirməkdir. Səfər çərçivəsində biz bir neçə görüşlər keçirəcək, xeyriyyə tədbirlərində iştirak edəcəyik. On ilə yaxındır ki, Azərbaycanda Asiya Müsəlmanları Cəmiyyətinin bölməsi fəaliyyət göstərir. Cəmiyyətin Bakıda ofisinin açılmasına icazə verildiyi və geniş fəaliyyətinə imkan yaradıldığı üçün Azərbaycan prezidentinə minnətdarlıq edirik. Ötən illər ərzində cəmiyyətin xətti ilə minlərlə qaçqın və məcburi köçkün ailəsinə yardım göstərmişik. Bizə məlumdur ki, Azərbaycan prezidenti qaçqın və məcburi köçkünlərlə əlaqədar yeni proqram təsdiq etmişdir. Dövlətqaçqınkomun sədri Əli Həsənovla görüşüb sənədlə bağlı bizim görə biləcəyimiz işləri müzakirə edəcəyik. Bundan sonra həmin sənədə uyğun olaraq yardımlarımızı davam etdirəcəyik. Küveyt dost, qardaş Azərbaycana təkcə bu məsələdə deyil, bütün sahələrdə hər cür kömək göstərməyə hazırdır.

## Qafqaz Müsəlmanları İdarəsində görüş

Küveytin vəqflər və islam işləri naziri doktor Abdullah Məətuq əl-Məətuqun rəhbərlik etdiyi nümayəndə heyəti avqustun 5-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam hacı Allahşükür Paşazadə ilə görüşmüşdür.

Qonaqları səmimiyyətlə salamlayan şeyxülislam Küveytin Azərbaycanın haqq işini həmişə müdafiə etdiyini, ən çətin zamanlarda ölkəmizə mənəvi dəstək olduğunu xatırladaraq demişdir ki, məqsədimiz əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dostluq və qardaşlıq münasibətlərini daha da möhkəmləndirməkdir. Hacı Allahşükür Paşazadə bu sahədə Azərbaycan prezidenti İlham Əliyevin fəaliyyətini yüksək qiymətləndirmişdir.

Küveytin vəqflər və islam işləri naziri Abdullah Məətuq əl-Məətuq Azərbaycanın onun ölkəsinə həmişə dost münasibət bəslədiyini bildirmişdir. O, Küveytin ağır günlərində Azərbaycanın onu dəstəklədiyini, ərazi bütövlüyünü müdafiə etdiyini xüsusi vurğulamışdır.

Görüşün sonunda Qafqaz Müsəlmanları İdarəsi ilə Küveytin Vəqflər və İslam İşləri üzrə Nazirliyi arasında əməkdaşlığa dair protokol imzalanmışdır.

## Küveyt Azərbaycanın mövqeyini dəstəkləyir



**Avqustun 8-də Milli Məclisin sədri Murtuz Ələsgərov Küveyt dövləti vəqf və islam işləri naziri Abdullah Məətuq əl-Məətuqun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.**

Qonaqları səmimi salamlayan spiker bildirdi ki, Azərbaycan Qafqazda özünəməxsus rol oynadığı kimi, Küveyt də Yaxın Şərqin nüfuzlu ölkələrindəndir. Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra 1994-cü ildə Küveytlə diplomatik əlaqələr yaradıldı. Ölkənizlə münasibətlərin genişləndirilməsində ümummilli liderimiz Heydər Əliyevin xüsusi xidmətləri olub. Ulu öndərimizin fərmanı ilə 2002-ci ildə Azərbaycanın Küveytdə səfirliyi təsis olunub. Sonrakı illərdə Azərbaycanın 150 nəfərdən ibarət qüvvələri Küveytdə sülhməramlı tədbirlər çərçivəsində birgə təlimlər keçiblər.

Parlamentin başçısı M.Ələsgərov dedi ki, Azərbaycanla Küveyt arasında bütün sahələrdə, o cümlədən iqtisadi və mədəni sahələrdə əməkdaşlıq inkişaf edir və möhkəmlənir. 1996-cı ildə Milli Məclisin sədri başda olmaqla Azərbaycan parlamentinin nümayəndə heyəti Küveytdə rəsmi səfərdə olub, Küveyt əmiri ilə görüşərək fikir mübadiləsi aparıb. 2000-ci ildə Küveyt parlamentinin nümayəndə heyəti də Azərbaycana gəlib. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri ikitərəfli əlaqələrin genişləndirilməsində mühüm əhəmiyyət kəsb edir. Ona görə də parlamentlər arasında əməkdaşlığın möhkəmlənməsini vacib hesab edirik.

Söhbət zamanı spiker xatırlatdı ki, Küveyt dövləti və Küveytin qeyri-hökumət təşkilatları Azərbaycanda qaçqın və məcburi köçkünlərin həyatlarını yaxşılaşdırmaq üçün xeyriyyə yardımlarını əsirgəmirlər. Küveytin Asiya Müsəlmanları Cəmiyyəti ağır şəraitdə yaşayan bu insanlara humanitar yardım göstərir. Vaxtilə Küveyt və digər ərəb dövlətlərinin Bakıda keçirilən konfransında qaçqınlara göstərilən yardımın artırılması barədə qərar qəbul edilib. Bu yaxınlarda parlament nümayəndə heyətimiz Səudiyyə Ərəbistanında olarkən krallığın rəsmi şəxsləri bildirmişlər ki, Azərbaycana humanitar yardımlar göndərilməsi davam etdiriləcək.

M.Ələsgərov dedi: "Azərbaycan demokratiya yolu ilə inkişaf edir. Ölkəmiz dünyanın bir çox ölkələri ilə əlaqələri genişləndirir. Üzləşdiyimiz ən böyük problem Azərbaycan ərazisinin Ermənistan tərəfindən işğal olunmasıdır. Bildiyiniz kimi, torpaqlarımızın 20 faizi zəbt edilmişdir. Bir sıra beynəlxalq təşkilatlar, o cümlədən ATƏT problemin çözülməsi ilə məşğul olur. Lakin təcavüzkar torpaqlarımızı işğal altında saxlamaqdadır. Hesab edirik ki, problem danışıqlar və sülh yolu ilə həll olunmalıdır". Milli Məclisin sədri qeyd etdi ki, Ermənistan BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə, Avropa Şurasının, ATƏT-in qərarlarına məhəl qoymur və öz işğalçılıq siyasətini davam etdirir. Bu yaxınlarda ATƏT-in Edinburqda keçirilən sessiyasında da Ermənistanın işğalçılıq siyasəti pislənilib. Məlum olduğu kimi, Azərbaycanın işğal olunmuş ərazilərindən narkotik vasitələrin daşınması, beynəlxalq terrorçu təşkilatların bazaları, radioaktiv maddələrin basdırılması məqsədilə istifadə edilir. Bu problem Azərbaycanın dövlət suverenliyi və ərazi bütövlüyü prinsipləri əsasında həll olunmalıdır. Biz torpaqlarımızın bircə qarışını da heç kəsə verməyəcəyik.

M.Ələsgərov Azərbaycanın mövqeyini beynəlxalq təşkilatlar çərçivəsində dəstəklədiyinə görə Küveyt dövlətinə minnətdarlığını bildirdi.

Küveyt nümayəndə heyətinin rəhbəri Abdullah Məətuq əl-Məətuq Küveytlə Azərbaycan arasında bir sıra oxşar cəhətlər olduğunu vurğuladı. Onun sözlərinə görə, hər iki dövlətin dinləri eynidir və Küveytlə Azərbaycan neft ölkələridir. Dövlətlərimiz oxşar problemlərdən əziyyət çəkirlər. Küveyt dövləti Azərbaycanı həmişə dəstəkləyir. Qafqaz Müsəlmanları İdarəsinin səldri şeyxülislam Allahşükür Paşazadə ilə əməkdaşlıq haqqında saziş imzalanıb.

Qəbulda Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə iştirak edirdi.

*"Azərbaycan"*
*Foto A.MƏMMƏDOVUNDUR*